## *QƏLƏMİNİ QANINA BATIRAN ŞAİR*

Ülvi Bünyadzadəyə

Sağlığında gəlmədin...
Bilmədim bir şair var -
Qələmini qanına batırıb yazar.
Düzər misralarını "Azad Azərbaycan!" adlı
arzuların dağına.
Qəlbində - Azad Azərbaycan boyda ümid,
Başında - Azad Azərbaycan boyda
içi köz-köz,
üstü tüstülü ocaq,
Ayağında nimdaş ayaqqabı,
And içər Vətənə ki:
Vətənə oğul olacaq!
Sağlığında gəlmədin...
Bilmədiın bir şair var -
Nə şan-şöhrət istəyər,
Nə də qonorar umar.
Gözlərində yetmiş illik şüarların zilləti,
didərginlik əzabı,
Ürəyində - Azad Azərbaycan adlı
məmləkətin sətirləri
Ayağında nimdaş ayaqqabı...
...Qətlin
şerindən tez çatdı cahana,

Qətlin meydan oxudu

Yalançı pəhləvantək

Yalan atını minib

Dünyaya "meydan oxuyan"a.

Şerin açdı qapımı
Ağın qarayla vuruşu,
Bir kəsin min nakəslə savaşı...

hər vərəqində
İlk oxucıın bibin Almazın

Gildir-gildir göz yaşı.

Bibin ayrı söz tapmadı,
Elə "Ülvim!" "Ülvim!" — dedi,
Bibinin göz yaşları da qanlı idi...
1990

Hidayət